UOT 81'366

**G.Q.QURBANOVA**
*filologiya üzrə fəlsəfə doktoru*
*e-mail:gulnara.qurbanova@mdu.edu.az*
**:https://orcid.org/0000-0003-1206-3909**

**Mingəçevir Dövlət Universiteti**
(Mingəçevir şəh., D.Əliyeva küç., 21)

**10.62021/0026-0028.2025.3.190**

# ELEKTRON YAZIŞMALARDA İNGİLİS MƏNŞƏLİ QISALTMALARIN GƏNCLƏR ARASINDA İSTİFADƏ XÜSUSİYYƏTLƏRİ

***Xülasə.*** *Bu məqalədə slənqin və qısaltmaların elektron yazışmalarda, xüsusilə gənclər arasında internetdə ünsiyyət zamanı oynadığı rol araşdırılır. Elektron kommunikasiya müasir dövrdə yazılı nitqin yeni bir forması kimi formalaşır və özünəməxsus linqvistik və psixoloji xüsusiyyətlərə malikdir. Məqalədə emosional ifadə vasitəsi kimi smayliklərin və ingilis dilindən alınmış qısaldılmış ifadələrin (məsələn, lol, brb, imho və s.) istifadəsi, bu vasitələrin sosial şəbəkələr və çat platformalarında ünsiyyəti necə asanlaşdırdığı təhlil olunur. Elmi araşdırmanın empirik hissəsində 16-18 yaşlı tələbələr arasında aparılmış sorğunun nəticələri təqdim edilir.*

***Açar sözlər:*** *slənq, qısaltma, internet, sorğu, gənclər*

Gənclər arasında slənq istənilən ölkədə dilçiliyin əsas müzkirə mövzularından biridir. Onu tez-tez tənqid edirlər, lakin qeyd etmək vacibdir ki, dil ünsiyyətdən başlayır. Əgər slənq insanlara ünsiyyət qurmaqda kömək edirsə, deməli, bu dilçilik anlayışına diqqət yetirmək lazımdır.

İnternet bu gün artıq bütöv bir dünyadır, onun vasitəsilə dünyanın istənilən nöqtəsində olan insan ilə informasiya mübadiləsi aparmaq mümkündür. Məlumatların qəbulu, ötürülməsi və paylaşılması üçün müxtəlif üsullar mövcuddur. Bu tədqiqat işində müasir yeniyetmələrin və gənclərin istifadə etdiyi ən effektiv və populyar elektron yazışma formaları, eləcə də internetdə ünsiyyətin xüsusiyyətlərindən bəhs olunur.

Bu mövzu ona görə aktualdır ki, internetdə yazışma dünyada ən populyar yazılı ünsiyyət forması olduqdan sonra, elektron mesajların yazılış prinsiplərinin öyrənilməsi böyük əhəmiyyət daşımağa başlayıb.

**Tədqiqatın məqsədi:** İngilis dilində elektron yazışmalarda istifadə olunan qısaltmaları öyrənmək, slənq və qısaltmalardan istifadə ilə bağlı Mingəçevir Dövlət Universitetinin tələbələri arasında sorğu aparmaq.

**Tədqiqatın vəzifələri:**

1. İnternetdə ünsiyyətin xüsusiyyətlərini araşdırmaq;
2. Elektron yazışmalarda istifadə olunan qısaltma növlərini öyrənmək;
3. Mingəçevir Dövlət Universitetinin tələbələri arasında sorğu keçirmək;
4. Sorğunun nəticələrini təhlil etmək;
5. Elektron yazışmalarda ən çox istifadə olunan ingilis qısaltmaları üzrə lüğəti hazırlamaq;
6. Yekun nəticələri ümumiləşdirərək nəticə çıxarmaq.

**Tədqiqatın obyekti** ingilis dilindəki qısaltmalar və slənq, **tədqiqatın predmeti** isə ingilis dilindəki qısaltmaların linqvistik analizidir.

İngilis slənqi sırf sosial-mədəni bir dil hadisəsi olduğundan, onun mahiyyətini cəmiyyətin sosial gerçəkliyi və sosial qrupların mədəni səviyyəsi müstəvisində müəyyənləşdirmək

mümkündür. Dil onu danışan xalqın sosial-mədəni gerçəkliyi daxilində mövcud olub, bu gerçəklikdən qidalanır və onu əks etdirir [2, s.42]. Dilin arxa planında onu danışan insanların sosial, mədəni həyat təcrübəsi, dünyagörüşü, mənəvi dəyər və mentaliteti dayanır. Slənq müəyyən sosial mühiti əks etdirən, emosional və qismən də kobud çalarlığa malik olan söz və söz birləşməsidir. Slənq – xüsusi sözlər və ya artıq mövcud olan sözlərin yeni mənaları ilə formalaşan ifadələr toplusudur. Bu sözlər müxtəlif sosial qruplarda – peşəkar, ictimai, yaşa görə və s. istifadə olunur.

İnternetdə ünsiyyətin qurulması məsələsinin dilçilik və psixoloji olmaqla iki tərəfi var. Bu iki tərəf bir-biri ilə sıx bağlıdır və bir-birini tamamlayır. Müasir psixologiyada "effektiv ünsiyyət texnologiyaları" anlayışı mövcuddur. Qərb sosial psixologiyasında isə bu anlayışa uyğun gələn "özünü təqdimetmə" (self-presentation) xüsusi bir termin var. Biz ünsiyyət zamanı, bəzən şüuraltı şəkildə, bəzən isə qəsdən, öz şəxsiyyətimizin müəyyən cəhətlərini vurğulayırıq ki, qarşımızdakında bizə dair müəyyən bir təsəvvür formalaşsın. Ünsiyyət prosesində seçdiyimiz nitq taktikaları vasitəsilə qarşı tərəfə öz obrazımızı formalaşdırmaq üçün "material" təqdim edirik və əgər düzgün təəssürat yaratmağı bacarırıqsa, bu zaman qarşılıqlı maraq mexanizmi hərəkətə başlayır [7, s.322].

İnternetdə, məsələn, e-mail və ya ICQ vasitəsilə ünsiyyət zamanı – müasir ingilis dilindəki emosional mənalı qısaltmalardan istifadə etmək qarşı tərəfin diqqətini cəlb etməyə və ünsiyyət qurmağa maraq oyatmağa kömək edir. İnternet ünsiyyətinin spesifikasına nəzər saldıqda, əminliklə demək olar ki, burada xüsusi bir nitq taktikası – qlobal şəbəkədə ingilis dilində ünsiyyət taktikası formalaşıb. Bu taktika klassik ingilis dilindən fərqlənən xüsusiyyətlərə malikdir. Bu səbəbdən, internetdə ünsiyyət quran müasir gənc üçün təkcə ingilis dilini öyrənmək və tətbiq etmək kifayət deyil – o, eyni zamanda səmərəli əlaqə qurmaq, özünü düzgün təqdim etmək və mədəni mübadilə üçün bu xüsusi ünsiyyət taktikalarına da yiyələnməlidir.

Elektron məktubların klaviatura vasitəsilə yazılması, ekranlardan oxunması və sürətli yazışmalar – bütün bunlar artıq danışıq formasına çevrilib. Deməli, internetin yazı dili də özünəməxsus xüsusiyyətlərə malikdir. Məsələn, emosional vəziyyəti ifadə edən simvol və qısaltmaların, yəni smayliklərin geniş istifadəsi bu xüsusiyyətlərdən biridir.

1979-cu ildə, ilk xəbər qruplarından biri olan MsgGroup-un üzvü Kevin Mackenzie yazışma mühitinin "yalnız mətn" olması səbəbindən emosiyaların ifadəsinin ciddi şəkildə məhdudlaşdığını bildirib. Bu problemi həll etmək üçün o, duyğuların ifadəsini təmin etmək məqsədilə nöqtə, defis və mötərizələrdən ibarət simvollardan istifadəni təklif edib. İlk reaksiya qarışıq olsa da, əksəriyyət bu ideyanı müsbət qarşılayıb. Beləliklə, artıq 20 ildən çoxdur ki, smayliklər forumlar, çatlar və elektron məktublarda istifadə olunur [6, s.56]. Bundan başqa, daha bir "qeyri-adi" söz qrupu – məsələn, "lol", "rtfm" və s. kimi sözlərdən ibarət qrup mövcuddur. Bunlar artıq sabitləşmiş və ingilis dilindəki standart ifadələrin qısaldılmış formalarıdır. İnternetin ABŞ-da yaranması və uzun müddət əsas dil kimi ingilis dilinin dominant olması səbəbindən bütün bu internet slənqi də ingiliscə əsaslıdır. Bu qısaltmaların yaranma mənbəyini anlamaq o qədər də çətin deyil. Onların yaranmasının əsas səbəbi internet ünsiyyətinin spesifikası və zaman qənaətinə olan ehtiyacdır. Bir vaxtlar onlayn olmaq baha başa gəlirdi. Bu səbəbdən, yazışmaların qısa olması həm də iqtisadi baxımdan zəruri idi. Məsələn, çatda "upinion" (opinion əvəzinə) yazılsa heç kim buna fikir verməz. Lakin "imho" (in my humble opinion) yazan şəxs internetdə təcrübəli biri kimi görünür və bu da onunla ünsiyyət qurmağın dəyərli olduğunu göstərir.

Elektron yazışma qısa, konkret cümlələrlə, Azərbaycan sözlərinin daha yığcam ingilis formaları ilə əvəz olunması, qısaltmalar və emosional simvollar – smayliklər vasitəsilə ifadə olunur [4, s.16].

**Abbreviaturaların növləri.**

İnternet ünsiyyətində istifadə olunan abreviaturaları əsasən üç qrupa ayırmaq olar:

1. **Tələffüzə əsaslanan abreviaturalar** – burada ifadə yazılışına deyil, səslənişinə görə qısaldılır. Məsələn, “CU” – “see you” (görüşərik), “B4” – “before” (əvvəl), “GR8” – “great” (əla), “l8” – “late” (gec), “m8” – “mate” (dost). Bu cür abreviaturalar səslərin oxşarlığından faydalanaraq qısa forma yaradır.

2. **Sadəcə ilk hərflərlə formalaşan abreviaturalar** – daha çox rəsmi ifadələrin və ya söz birləşmələrinin baş hərfləri ilə yaranır. Məsələn: “LOL” – *Laughing Out Loud* (ucadan gülmək), “BRB” – *Be Right Back* (tezliklə qayıdacağam), “TTYL” – *Talk To You Later* (sonra danışarıq), “IMHO” – *In My Humble Opinion* (təvazökar fikrimcə), “OMG” – *Oh My God* (Ay Allah!), “IDK” – *I Don’t Know* (bilmirəm), “FYI” – *For Your Information* (məlumat üçün) [12].

Bu abreviaturalar təkcə zamana qənaət etməyə deyil, həm də istifadəçinin internet ünsiyyəti qaydalarına nə dərəcədə bələd olduğunu göstərir.

3. **Tam qısaldılmış və ya yeni yaranmış sözlər** – məsələn: “noob” – təcrübəsiz yeni istifadəçi, “gratz” – “congratulations” (təbriklər), “thx” və ya “tnx” – “thanks” (təşəkkür). Bu cür formalar artıq bir çox internet icmalarında norma halına gəlib və gündəlik internet danışığında geniş istifadə olunur.

4. **Smayliklər və simvollar.** Smayliklər – əsasən durğu işarələrindən ibarət kiçik simvollardır. Onlar yazı vasitəsilə emosional vəziyyəti çatdırmaq üçün istifadə olunur. Məsələn:

– gülümsəyən sima (“:)”, “=)” və ya “:-)” kimi yazılır),
– ağlayan sima (“:(” və ya “:'(” kimi),
– təəccüb (“:O” və ya “:-O”),
– göz qırpan sima (“;)” və ya “;-)”).

Smayliklər mətnin ruhunu canlandırır və yazı ünsiyyətində jest və mimikanın yoxluğunu müəyyən qədər kompensasiya edir. Buna görə də onlar internet yazışmasının ayrılmaz hissəsinə çevrilib. Müasir dövrdə bu simvollar artıq vizual emoji formalarında da istifadə olunur və demək olar ki, hər platformada dəstəklənir.

**Gənclərin elektron yazışmaya münasibəti: sorğu nəticələri.** İnternet ünsiyyəti xüsusilə gənclər arasında geniş yayılıb. Qloballaşan dövrdə gənclərin çoxu müntəzəm olaraq sosial şəbəkələrdə, forumlarda, bloqlarda və ICQ-da ünsiyyət qururlar. Tədqiqatlar göstərir ki, məktəblilər və tələbələr arasında internet slənqinə aid qısaltmalardan istifadə edənlərin sayı ildən-ilə artır. Onlar bunu həm vaxt itirməmək, həm də “özlərini daha müasir və trenddə” göstərmək üçün edirlər.

Elektron yazışma ilə bağlı vəziyyət necədir və gənclər hansı ingilis abreviaturalarından istifadə edirlər? Bu sualın cavabını müəyyən etmək Mingəçevir Dövlət Universitetində dərs dediyim qruplarda təxminən 70 tələbə arasında bir neçə sualdan ibarət anket hazırladım. Respondentlər 16-18 yaşlı tələbələr idi. Sualların məqsədi – gənclərin internet mühitində özlərini ifadə etmək üçün hansı dildən istifadə etdiklərini araşdırmaq idi (Əlavə 1).

**Anket nəticələri belə oldu:**

1). “Elektron yazışmadan istifadə edirsinizmi?” sualına demək olar ki, bütün gənclər müsbət cavab verdilər.

2). “Elektron yazışmadan nə qədər tez-tez istifadə edirsiniz?” sualına cavab olaraq əksəriyyət hər gün istifadə etdiklərini dedi.

3). “Qısaltmalardan istifadə edirsinizmi?” – əksər iştirakçılar mütəmadi istifadə etdiklərini bildirdilər.

4). “Elektron yazışmalarda ingilis abreviaturalarından istifadə edirsinizmi?” – əksəriyyət bəli cavabını verdi.

5). “Hansılardan istifadə edirsiniz?” – smayliklər, ingilis qısaltmaları və işarələrin təxminən eyni dərəcədə istifadə olunduğu qeyd edildi.

6). “İngilis abreviaturaları haqqında daha çox öyrənmək istərdinizmi?” – demək olar ki, bütün şagirdlər bu sahədə biliklərini artırmaq istədiklərini qeyd etdilər.

***Nəticə.*** Anket sorğusunun nəticələri göstərdi ki, gənclər müntəzəm olaraq elektron yazışmadan istifadə edir. Respondentlərin əksəriyyəti internetdə ünsiyyət zamanı abreviatura və smayliklərdən istifadə edir və bu vasitələr sayəsində ünsiyyətin daha “canlı və səmimi” olduğunu düşünürlər.

Lakin ingilis abreviaturaları nisbətən az istifadə olunur, çünki bu tip abreviaturalara yalnız xarici yaşıdlarla ünsiyyət zamanı ehtiyac duyulur. Buna görə də hələlik azərbaycanlı gənclər arasında geniş yayılmayıb. Buna baxmayaraq, bu mövzu gənclərdə maraq doğurduğu üçün onlara ən çox istifadə olunan ingilis abreviaturalarının qısa izahlı lüğətindən istifadə etməyi təklif etdik.

Bəzi müəllim və dilçi alimlər bu tendensiyanın dilin normativliyinə təsirindən narahatdırlar. Onlar hesab edirlər ki, bu cür abreviaturaların geniş yayılması dilin zənginliyinin azalmasına və düzgün yazı qaydalarının pozulmasına gətirib çıxara bilər. Bununla belə, danılmaz faktdır ki, internet slənqi artıq müasir dilin bir hissəsinə çevrilib və onu görməzdən gəlmək mümkün deyil. Əsas məsələ – bu dil elementlərindən düzgün və yerində istifadəni öyrənməkdir.

***Elmi yenilik:*** Bu iş, ilk dəfə olaraq Mingəçevir Dövlət Universitetinin tələbələri arasında sorğu əsasında internet ünsiyyətində ingilis abreviatura və slənqlərindən istifadənin real mənzərəsini təqdim edir. Həmçinin tədqiqatda internetdə istifadə olunan abreviaturaların 4 əsas növə bölünməsi (tələffüzə əsaslanan, baş hərflərlə yaranan, yeni söz formasında olan abreviaturalar və smayliklər) aydın və funksional təsnifat modeli təqdim edir.

***Tətbiqi əhəmiyyət:*** Tədqiqat nəticələri yalnız nəzəri deyil, həm də praktik tövsiyələrə əsaslanır: məsələn, tələbələr üçün ingilis abreviaturalarının qısa izahlı lüğətinin hazırlanması təklif olunur. Bu, internet ünsiyyətində effektivlik və mədəni inteqrasiyanı artırmaq baxımından vacibdir. İşdə təqdim olunan abreviaturaların təsnifatı, onların istifadəsi və funksiyaları barədə məlumatlar, xarici dil müəllimləri üçün müasir ünsiyyət formalarını dərslərə inteqrasiya etmək baxımından faydalı metodik material kimi istifadə oluna bilər.

**Əlavə 1.**

**Anket sorğusu**

Hörmətli respondent, sizə anket sorğusunu cavablandırmaq təklif olunur. Sorğu anonimdir, ad və soyadınızı qeyd etmək tələb olunmur:

1) Elektron yazışmadan istifadə edirsinizmi?
   a) Bəli b) Xeyr
2) Elektron yazışmadan hansı tezliklə istifadə edirsiniz?
   a) Tez-tez b) Çox tez-tez c) İstifadə emirəm
3) Hansı qısaltmalardan istifadə edirsiz?
   a) Smaylik b) Hərfi qısaltmalardan c) İşarələrdən
4) Elektron yazışmalarda ingilis abreviaturalarından istifadə edirsinizmi?
   a) Bəli b) Xeyr
5) İngilis abreviaturaları haqqında daha çox öyrənmək istərdinizmi?
   a) Bəli b) Xeyr

**Ədəbiyyat**

1. Qurbanova, G.Q. İngilis dilində slənqlərin yaranması yolları // Doktorant və gənc tədqiqatçıların XXIII Respublika elmi konfransı. – Bakı: – 3-4 dekabr – 2019, – s.177-179.
2. Qurbanova, G.Q. Qloballaşan cəmiyyətdə slənq anlayışının araşdırılması // – Bakı: Azərbaycan Dillər Universitetinin Elmi xəbərləri, – 2022. № 3, – s.42-44.
3. Qurbanova, G.Q. Qloballaşma şəraitində yeni texnologiyaların ingilis dilinin lüğət tərkibinə təsiri // “Regional inkişafın təmin olunmasında innovativ tendensiyalar, reallıqlar və müasir çağırışlar” adlı Respublika elmi konfransı. – Mingəçevir: – 11-12 dekabr – 2020, – s.501-503.
4. Qurbanova, G.Q. Müasir dilçilikdə internet slənqlərin rolu // – Bakı: Bakı Qızlar Universitetinin Elmi Xəbərləri, – 2020. №1, – s.15-23.

5. Гайда, А.Ю. Языковые особенности интернет-коммуникации // Вестник Томского государственного университета. – 2017. № 420. – с. 46-50.
6. Резник, С.Д. Эмоциональность в интернет-общении // Филологические науки. – 2015. – № 1. – с. 55-59.
7. Тагаева, Г.А. Особенности молодежного интернет-жаргона // Молодой ученый. – 2019. – № 17 (255). – с. 322-324.
8. Baron, N.S. Always On: Language in an Online and Mobile World / N.S.Baron, – Oxford: Oxford University Press, – 2008. – 304 p.
9. Crystal, D. Language and the Internet / D.Crystal, – Cambridge: Cambridge University Press, – 2006. – 296 p.
10. Danet, B. The Multilingual Internet: Language, Culture, and Communication Online / B.Danet, S.C.Herring. – Oxford: Oxford University Press, – 2007. – 384 p.
11. David, M.K. Electronic English: The Language of the Internet // Language and Communication. – 2010. – Vol. 30, № 2. –132-145 p.
12. https://www.internetslang.com – Internet Slang Dictionary (Baxış tarixi: 28.05.2025)

**G.K.Gurbanova**

**The Use of English-Origin Abbreviations in Electronic Correspondence among Young People**

***Summary***

This article explores the role of slang and abbreviations in electronic correspondence, particularly among young people communicating via the internet. Electronic communication is emerging as a new form of written language with unique linguistic and psychological features. The study analyzes the use of smileys and English-based abbreviations (such as *lol, brb, imho,* etc.) as emotional expression tools and how they facilitate communication on social networks and chat platforms. The empirical part of the research presents the results of a survey conducted among university students aged 16-18.

***Keywords:*** *slang, abbreviation, internet, survey, youth*

**Г.К.Гурбанова**

**Особенности использования английских аббревиатур в электронной переписке среди молодежи**

***Резюме***

В данной статье исследуется роль сленга и аббревиатур в электронной переписке, особенно среди молодежи, общающейся в интернете. Электронная коммуникация в современном обществе формируется как новая форма письменной речи, обладающая особыми лингвистическими и психологическими характеристиками. В работе анализируется использование смайликов и сокращений, заимствованных из английского языка (таких как *lol, brb, imho* и др.), как средств выражения эмоций и упрощения общения в социальных сетях и чатах. Эмпирическая часть исследования основана на результатах опроса, проведенного среди студентов в возрасте 16-18 лет.

***Ключевые слова:*** *сленг, аббревиатура, интернет, опрос, молодежь*

*Rəyçi: dos. M.N.Rəhimov*

*Redaksiyaya daxil olub: 20.05.2025*